**Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinin birinci hissəsinin 1-ci bəndinə əsasən öz işini təşkil etmək məqsədilə Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi təsdiq edilsin (əlavə olunur).

2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 may 1996-cı il
№ 74-IQ

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN DAXİLİ NİZAMNAMƏSİ

## Birinci fəsil
## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN FƏALİYYƏTİNİN ÜMUMİ QAYDALARI

### Maddə 1. Azərbaycan Respublikası Milli Məclisinin fəaliyyətinin əsasları

Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin IV hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisi (bundan sonra "Milli Məclis" adlanacaq) Azərbaycan Respublikasının Konstitusiyası ilə onun səlahiyyətlərinə aid edilmiş məsələləri müstəqil həll edir.

Milli Məclisin fəaliyyətinin əsas prinsiplərini aşkarlıq, siyasi plüralizm və çoxpartiyalılıq, məsələlərin sərbəst müzakirə və müstəqil həll olunması təşkil edir.

Milli Məclisin hər çağırışının növbəti və növbədənkənar sessiyaları ardıcıl sıra sayı ilə adlanır. Milli Məclisin sessiyalarının başlanması və qurtarması zamanı Azərbaycan Respublikasının Dövlət himni ifa olunur. Milli Məclis növbəti və növbədənkənar sessiyalar dövründə iclaslar keçirir. Milli Məclisin deputatlarının Milli Məclisin iclaslarında iştirakı məcburidir.

Səlahiyyəti dövründə Milli Məclis ildə iki dəfə-iyul ayının 15-dən avqust ayının 30-dək və yanvar ayının 1-dən 15-dək tətilə buraxılır. Tətil dövründə Milli Məclisin deputatları məzuniyyətdə sayılır. Tətil dövründə Milli Məclisin növbədənkənar sessiyası çağırıldıqda Milli Məclisin tətili növbədənkənar sessiyanın keçirildiyi müddətə dayandırılır və Milli Məclisin deputatları həmin müddətə məzuniyyətdən geri çağırılırlar.

Azərbaycan Respublikası Konstitusiyasının 88-ci maddəsinin I hissəsinin birinci abzasına uyğun olaraq Milli Məclis hər il iki növbəti yaz və payız sessiyalarına yığılır. Yaz sessiyası fevralın 1-də başlanır və mayın 31-dək davam edir. Payız sessiyası sentyabrın 30-da başlanır və dekabrın 30-dək davam edir. Əgər fevralın 1-i və sentyabrın 30-u istirahət, səsvermə, iş günü hesab edilməyən bayram gününə düşərsə, sessiya bu gündən sonra gələn birinci iş günü öz işinə başlayır.

Milli Məclis Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində yerləşir.

Milli Məclisin binasının xüsusi rejimi Milli Məclisin Sədrinin sərəncamı ilə müəyyən edilir. Milli Məclisin Sədrinin icazəsi olmadan Milli Məclisin binasında axtarış aparıla bilməz.

### Maddə 1–1. Yeni seçilmiş Milli Məclisin ilk iclasının keçirilməsi vaxtının təyin edilməsi

Milli Məclisin 83 deputatının səlahiyyətləri təsdiq edildikdən sonra Milli Məclisin ilk iclası həmin gündən başlayaraq bir həftədən gec olmayaraq çağırılır.

Milli Məclisə seçkilərdən sonra martın 10-dək onun 83 deputatının səlahiyyətləri təsdiq edilməzsə, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Milli Məclisin ilk iclasının keçirilmə vaxtını müəyyən edir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Milli Məclisin 83-cü deputatının seçildiyini martın 10-dan sonra təsdiq edərsə, həmin iclasda yeni seçilmiş Milli Məclisin ilk iclasının keçirilməsi vaxtını da təyin etməlidir.

**M a d d ə 2 . Milli Məclisin növbəti çağırışlarının birinci iclası**

Milli Məclisin növbəti çağırışlarının birinci iclasını Milli Məclisin ən qocaman deputatı açır, Milli Məclisə seçilmiş deputatların siyahısını oxuyur və Milli Məclisin Sədri seçilənədək birinci iclası aparır.

Milli Məclisin birinci iclasında sədrlik edənin təklifi ilə Hesablayıcı komissiya seçilir və bu barədə qərar qəbul edildikdən sonra Milli Məclisin Sədri və onun müavinləri seçilir, bununla da Milli Məclisin növbəti çağırışlarının birinci iclası işini bitirir.

**M a d d ə 3 . Milli Məclisin iclasları**

Milli Məclisin iclası 83 deputat iştirak etdikdə səlahiyyətlidir. Milli Məclisin iclasları açıq, aşkarlıq şəraitində keçirilir və media ilə işıqlandırılır.

Azərbaycan Respublikası Konstitusiyasının 88-ci maddəsinin IV hissəsinə əsasən, Milli Məclisin 83 deputatının tələbi ilə və ya Azərbaycan Respublikası Prezidentinin təklifi ilə Milli Məclisin sessiyasının qapalı iclası keçirilə bilər.

Milli Məclisin qapalı iclaslarının məzmunu haqqında məlumatlar aşkarlana bilməz və yalnız Milli Məclisin deputatları tərəfindən onların Milli Məclisdəki fəaliyyətində istifadə edilə bilər.

Azərbaycan Respublikası Prezidentinin Milli Məclisin bütün iclaslarında iştirak etmək hüququ var. Azərbaycan Respublikasının Prezidenti üçün Milli Məclisin iclas salonunda xüsusi yer ayrılır və orada Azərbaycan Respublikasının dövlət bayrağı yerləşdirilir. Azərbaycan Respublikasının Prezidenti Milli Məclisin iclaslarına gəldiyi zaman Azərbaycan Respublikasının Dövlət Himni ifa edilir.

Milli Məclisin iclasları Azərbaycan dilində keçirilir. Milli Məclisin deputatları və Milli Məclisin iclasında iştirak edən şəxslər başqa dildə də çıxış edə bilərlər.

Milli Məclisin, Milli Məclisin Sədrinin və onun müavinlərinin, Milli Məclis Aparati rəhbərinin dəvəti ilə Milli Məclisin iclaslarında başqa şəxslər də iştirak edə bilərlər.

Açıq iclaslar keçirilərkən Milli Məclisin iclas salonuna medianın Milli Məclisdə qeydə alınmış nümayəndələri onlara ayrılmış yerlərdə əyləşmək üçün buraxılır.

Karantin rejiminin tətbiq edilməsi, sanitariya-epidemioloji və bu kimi digər tədbirlərlə əlaqədar olaraq, Milli Məclisin Sədri Milli Məclisin iclaslarının, habelə Milli Məclisin komitə və komissiyalarının iclaslarının müəyyən dövr üçün real vaxt rejimində videokonfrans sistemi vasitəsilə keçirilməsi barədə sərəncam qəbul edə bilər. Videokonfrans sistemi vasitəsilə keçirilən iclaslarda qeydiyyat və səsvermə deputatların gücləndirilmiş elektron imzaları vasitəsilə həyata keçirilir.

**M a d d ə 4 . Milli Məclisin iclaslarının protokolları və stenoqramları**

Milli Məclisin bütün iclasları protokollaşdırılır və stenoqrama alınır.

Milli Məclisin iclasının protokolunu iclasa sədrlik edən imzalayır.

Milli Məclisin açıq iclaslarının protokolları və stenoqramları bu Daxili Nizamnamənin 53-cü maddəsinin dördüncü hissəsinə uyğun olaraq rəsmi dərc edilir. Milli Məclisin deputatının Milli Məclisin iclasının stenoqramı rəsmi dərc olunanadək öz çıxışının mətni ilə tanış olmaq hüququ vardır. Bununla əlaqədar mübahisə yaranarsa, məsələ Milli Məclisin İntizam komissiyasında həll edilir.

**M a d d ə 5 . Milli Məclisin fəaliyyət formaları**

Milli Məclisin fəaliyyəti növbəti, növbədənkənar sessiyalar və sessiyalararası dövrlərdə iş formalarında qurulur.

Milli Məclisin növbəti və növbədənkənar sessiyaları dövründə Milli Məclis öz iclaslarını keçirir, Milli Məclisin komitə və komissiyalarının iclasları keçirilir, Milli Məclisin deputatları komitə və komissiyaların işində iştirak edirlər.

Milli Məclisin iclasları ayda iki dəfədən az olmayaraq keçirilir. Milli Məclisin iclaslarının gününü və saatını Milli Məclisin Sədri təyin edir.

Milli Məclisin komitə və komissiyalarının iclasları ayda iki dəfədən az olmayaraq keçirilir. Milli Məclisin komitə və komissiya iclaslarının gününü və saatını Milli Məclisin müvafiq komitə və komissiyasının sədri təyin edir. Milli Məclisin sessiyaları arasındakı dövrdə Milli Məclisin komitə və komissiyalarınin işi davam edir və Milli Məclisin deputatları komitə və komissiyaların işində iştirak edirlər.

**M a d d ə 6 . Milli Məclisin iclaslarında deputatların qeydiyyatı**

Milli Məclisin iclasları iclasda iştirak edən deputatların qeydiyyatından başlanır. Deputatların qeydiyyatını iclasa sədrlik edən elektron səsvermə sistemi vasitəsi ilə, bu mümkün olmazsa, Milli Məclisin deputatlarının adbaad çağırılması üsulu ilə aparılır.

Üzürlü səbəbdən Milli Məclisin iclaslarında iştirak edə bilməyən deputatlar qabaqcadan Milli Məclisin Aparatına məlumat verməlidirlər.

Milli Məclisin iclasının hər fasiləsindən sonra deputatların qeydiyyatı keçirilir. Fasilədən sonra Milli Məclisin iclasında üzrsüz səbəbdən qeydiyyatdan keçməyən Milli Məclisin deputatı həmin iclasda iştirak etməmiş hesab edilir.

Milli Məclisin deputatı Milli Məclisin iclasında üzürsüz səbəbdən iştirak edə bilməyəcəksə, qabaqcadan Milli Məclisin Sədrindən icazə almalıdır. İcazə alaraq Milli Məclisin iclasında iştirak etməmək üzürlü səbəb sayılır.

**M a d d ə 7 . Milli Məclisin qanunvericilik işləri planı**

“Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun 42.1-ci maddəsinə əsasən, müvafiq olaraq, Milli Məclis və Azərbaycan Respublikasının Prezidenti qanun layihələrinin hazırlanmasının qarşılıqlı razılaşdırılmış illik planını tərtib edir. Milli Məclisin iclasları həmin illik plan əsasında növbəti sessiyanın ilk iclasında qəbul edilən qanunvericilik işləri planına uyğun olaraq keçirilir. Milli Məclisin qanunvericilik işləri planı qərarla təsdiq edilir və onun həyata keçirilməsinə Milli Məclis tərəfindən nəzarət edilir.

**M a d d ə 8 . Milli Məclisin iclaslarında deputatların hüquqları**

Milli Məclisin iclaslarında deputatın müzakirə olunan məsələlər barəsində çıxış etmək, təkliflər və düzəlişlər vermək, qeydlər etmək, çıxış edənlərə və Milli Məclis tərəfindən təyin edilən və ya təyin edilməsinə razılıq verilən vəzifələrə göstərilmiş namizədlərə sual vermək, arayış vermək, səsvermədə iştirak etmək hüququ vardır.

Milli Məclisin iclaslarında baxılacaq qanun layihələri Milli Məclisin iclasına azı 3 gün qalmış deputatlara paylanılır.

**M a d d ə 9 . Milli Məclisin iclaslarında iştirak edənlərə aid tələblər**

Milli Məclisin iclaslarında iştirak edənlər parlament etikasını gözləməlidirlər. Onlar Milli Məclisin iclaslarının aparılmasına mane olmamalı, çıxış edənlərin sözünü kəsməməli, iclasın normal gedişini və iş qaydasını pozmamalı, insanın şərəf və ləyaqətini alçaldan kobud, təhqiramiz hərəkətlərə və sözlərə yol verməməli, qanunsuz hərəkətlərə çağırmamalıdırlar.

Milli Məclisin iclasına sədrlik edən parlament etikasını gözləməyənlərə xəbərdarlıq edir, təkrar pozuntuya yol verilərsə, bütün iclas günü ərzində həmin şəxsi sözdən məhrum edə və bunu iclasda elan edə bilər. Özünü bu tərzdə aparmaqda davam edən şəxs Milli Məclisin iclasına sədrlik edənin göstərişi ilə iclas salonundan çıxarıla bilər. İclasın iş qaydasının pozulması ilə əlaqədar bütün hallar Milli Məclisin iclasının protokolunda qeyd olunur.

**M a d d ə 1 0 . Milli Məclisin iclaslarına sədrlik edən**

Milli Məclisin iclaslarına sədrlik edən Milli Məclisin iclasının gedişinə rəhbərlik edir, Milli Məclisin Daxili Nizamnaməsinə riayət olunmasını təmin edir, Milli Məclisin iclasında iştirak edənlərə söz verir, deputatların təkliflərini sıra ilə səsə qoyur, səsverməni keçirir və onun nəticələrini elan edir, Milli Məclisin aparatının işçilərinə göstərişlər verir və bunların icrasına nəzarət edir, Milli Məclisin iclasının protokolunu yoxlayır və imzalayır.

Milli Məclisin iclaslarına sədrlik edənin iclasın gedişində Azərbaycan Respublikası Konstitusiyasının, bu Daxili Nizamnamənin, başqa qanunların müddəalarının pozulması barədə məlumat vermək hüququ vardır.

Milli Məclisin iclaslarına sədrlik edən deputata verilmiş bütün hüquqlardan istifadə edir.

**M a d d ə 1 1 . Milli Məclisin iclaslarında çıxışlar üçün müəyyən edilmiş vaxt**

Milli Məclisin iclaslarında məruzə üçün 30 dəqiqəyədək, əlavə məruzə üçün 20 dəqiqəyədək, yekun sözü üçün 15 dəqiqəyədək vaxt ayrılır.

Müzakirələrdə iştirak edənlər üçün 10 dəqiqəyədək, təkrar çıxışlar üçün 5 dəqiqəyədək, iclasın aparılmasına dair, səsvermə mülahizələri ilə əlaqədar, namizədlər barədə çıxışlar, bəyanatlar, suallar, təkliflər, xəbərlər, arayışlar üçün 3 dəqiqəyədək vaxt ayrılır.

Müəyyən edilmiş vaxt başa çatdıqdan sonra Milli Məclisin iclasına sədrlik edən çıxış edəni xəbərdar edir, sonra isə onun sözünü kəsə bilər. Milli Məclisin iclasına sədrlik edən protokol qaydasında qəbul edilmiş qərar əsasında bu Daxili Nizamnamədə çıxışlar üçün müəyyən edilmiş müddətləri dəyişdirə bilər, çıxışların vaxtını uzada bilər.

**M a d d ə 1 2 . Milli Məclisin iclaslarında çıxışların ardıcıllığı**

Milli Məclisin iclaslarında çıxışlar gündəlikdə müəyyən edilmiş ardıcıllıqla çıxışlara yazılanların sıra növbəsi ilə edilir. Milli Məclisin iclasına sədrlik edən iclasın gedişində lazım bildikdə bu qaydanı dəyişdirə bilər. Milli Məclisin iclasında heç kəs Milli Məclisin iclasına sədrlik edənin icazəsi olmadan çıxış edə bilməz. Bu qaydanı pozan şəxs xəbərdarlıqsız sözdən məhrum edilir.

Milli Məclisin iclaslarında Azərbaycan Respublikası Prezidentinin, Milli Məclisin Sədrinin və onun müavinlərinin növbədənkənar çıxış etmək hüququ vardır. Milli Məclisin iclasına sədrlik edən zərurət yarandıqda Milli Məclisin deputatlarına və Milli Məclisin iclasında iştirak edən digər şəxslərə növbədənkənar söz verə bilər.

**M a d d ə 1 3 . Milli Məclisin iclaslarında müzakirələrin kəsilməsi**

Milli Məclisin iclaslarında hər hansı məsələnin müzakirəsi həmin məsələ ilə bağlı çıxışlara yazılanların siyahısı bitdikdə protokol qaydasında qəbul edilmiş qərar əsasında kəsilir.

Milli Məclisin iclasına sədrlik edən müzakirələrin kəsilməsi haqqında təklif alandan sonra deputatlara müzakirələrdə çıxış etmiş və çıxış etmək istəyən şəxslərin sayı haqqında məlumat verir, çıxış etmək üçün israr edənləri müəyyənləşdirir və protokol qaydasında qəbul edilmiş qərar əsasında onlara söz verir.

Müzakirələr kəsildikdən sonra məruzəçinin və əlavə məruzəçinin yekun sözü demək hüququ vardır. Müzakirələr kəsildikdən sonra yalnız səsvermə mülahizələri üzrə çıxışlar edilə bilər.

**M a d d ə 1 4 . Milli Məclisə təqdim edilmiş qanun və qərar layihələrinin qeydiyyatı və Milli Məclisin komitələrinə göndərilməsi**

Milli Məclisə təqdim edilmiş qanun və qərar layihələri Milli Məclisin Aparatında qeydiyyata alınır.

Milli Məclisə təqdim edilmiş qanun və qərar layihələrini Milli Məclisin Sədri Milli Məclisin komitəsinə göndərir və layihəyə baxılması müddətini müəyyən edir. Qanun layihəsi bir neçə müvafiq komitəyə göndərildiyi halda Milli Məclisin Sədri onlardan birini aparıcı komitə təyin edir.

**M a d d ə 1 5 . Milli Məclisin komitələrində qanun və qərar layihələrinin hazırlanması, razılaşdırılması və baxılması qaydası**

Milli Məclisin komitələrində qanun və qərar layihələrinin hazırlanması, razılaşdırılması və baxılması qaydasını aparıcı komitə Azərbaycan

Respublikasının Konstitusiyasına, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa və bu Daxili Nizamnaməyə əsasən müəyyənləşdirir.

Qanun və qərar layihələri üzərində iş aparmaq üçün komitə işçi qrupu yarada bilər. Qanun və qərar layihələri bir neçə komitə tərəfindən hazırlanırsa, onlar birgə işçi qrupları yarada bilərlər. Bir məsələyə aid iki və ya daha çox qanun və qərar layihəsi varsa, onlar birlikdə müzakirə edilir.

Aparıcı komitənin tapşırığı ilə Milli Məclisin Aparatı qanun layihələrinin ictimai dinləmələrini və ictimai müzakirələrini təşkil edir. İctimai dinləmə və ictimai müzakirə komitə iclası ilə birlikdə keçirilə bilər. İctimai dinləmənin və ictimai müzakirənin təşkili üçün Milli Məclisin Aparatı "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbirlər görür. İctimai dinləməyə və ictimai müzakirəyə dəvət edilən şəxslər ictimai dinləmənin və ya ictimai müzakirənin keçirilməsi tarixi barədə azı 5 gün əvvəl, Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinin V hissəsinə əsasən, təcili elan edilən qanun layihələri ilə bağlı isə azı 3 gün əvvəl xəbərdar olunurlar.

Milli Məclisin Aparatı komitənin tapşırığı ilə qanun və qərar layihələrinin məcburi hüquqi və linqvistik ekspertizalarını keçirir, habelə qanun layihəsinin qəbul edilməsi ilə əlaqədar hazırlanmalı, dəyişdirilməli və ya ləğv edilməli normativ hüquqi aktların (onların struktur elementlərinin) siyahısını tərtib edir. Hazırlanmalı olan normativ hüquqi aktların (onların struktur elementlərinin) siyahısı olmadan qanun layihələrinin hazırlanmasına yalnız bunun üçün 1 ildən artıq müddət tələb edildikdə yol verilir. Bu halda aparıcı komitə tərəfindən müvafiq siyahının təqdim edilməsi müddətini müəyyən edən tapşırıq hazırlanır.

Milli Məclisin deputatlarının və başqa qanunvericilik təşəbbüsü hüququ subyektlərinin qanun və qərar layihələrinə aid qeyd və təkliflərinə aparıcı komitənin iclaslarında baxılır.

Milli Məclisin komitələri arasında baxılan layihələrə dair fikir ayrılığı əmələ gələrsə, aparıcı komitənin qərarı əsas götürülür. Bu qərarla razı olmayan komitənin rəyi Milli Məclisin bu məsələyə aid iclasında deputatlara yazılı şəkildə çatdırılır.

Hazırlanmış və ya baxılmış layihə Milli Məclisin iclasının gündəliyinə daxil edilmək üçün iclasa dəvət olunmalı şəxslərin siyahısı ilə birlikdə Milli Məclisin Sədrinə təqdim edilir.

Qanunvericilik təşəbbüsü hüququnun subyekti və ya onun səlahiyyətli nümayəndəsi Milli Məclisdə layihə üzərində aparılan işdə iştirak etmək hüququna malikdir.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisə təqdim edilmiş qanun layihəsi bütün maraqlı dövlət orqanları ilə razılaşdırılmış hesab olunur.

Qanun layihəsi Milli Məclisdə layihədə edilmiş dəyişikliklərlə birlikdə aşağıdakılarla razılaşdırılmalıdır (rəy alınmalıdır):

1) qanun layihəsini təqdim etmiş qanunvericilik təşəbbüsü hüququnun subyekti ilə;

2) dəyişikliklər edilməsi dövlət vəsaitlərinin ixtisar edilməsinə, xərclərin yaranmasına və ya artırılmasına səbəb ola bildikdə Azərbaycan Respublikasının Prezidenti ilə və ya onun tapşırığı ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə.

“Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun 46.2-ci maddəsində nəzərdə tutulan razılaşdırılma (rəy) nəticəsində Milli Məclisə təqdim edilmiş dəyişikliklər qanun layihəsinin alındığı gündən 14 gün keçənədək bu şərtlə həyata keçirilir ki, həmin qanun layihəsi üzrə məcburi hüquqi ekspertizanın keçirilməsi və qanun layihəsinə baxılmasının təcili elan edilməsi ayrı müddət tələb etməsin. Əlavə məlumatın alınması zərurəti olduqda, habelə xüsusilə mürəkkəb qanun layihələri üzrə rəyin hazırlanması və razılaşdırılmanın keçirilməsi (rəyin hazırlanması) üçün daha uzun müddət müəyyən edilə bilər.

Rəyə göndərilmədən və razılaşdırılmadan müvafiq qanun layihəsində dəyişikliklər (texniki xarakter daşıyan dəyişikliklər istisna olmaqla) edilməsinə yol verilmir.

Milli Məclisə təqdim olunmuş qanun layihəsində dəyişikliklər edilmədikdə qanun layihəsi qanunvericilik təşəbbüsü hüququnun subyekti ilə təkrar razılaşdırılmır.

**M a d d ə 1 6 . Milli Məclisdə qanun layihələrinin oxunuşları**

“Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun 70.3-cü maddəsinə əsasən, Milli Məclisdə Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikası diplomatik nümayəndəliklərinin təsis edilməsi, inzibati ərazi bölgüsü, dövlət təltifləri, dövlətlərarası və Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələrin təsdiq və ləğv edilməsi barədə, uyğunlaşdırma məqsədi ilə hazırlanmış, həmçinin ad və digər texniki xarakter daşıyan dəyişiklikləri (müddət, məbləğ, yaş senzi ilə bağlı, həmçinin subyektlərin hüquqi vəziyyətinə təsir edən, hüquq məsuliyyətini yaradan və ya aradan qaldıran, yüngülləşdirən və ya ağırlaşdıran dəyişikliklər istisna olmaqla) nəzərdə tutan qanun layihələrinə bir oxunuşda, digər qanun layihələrinə, həmçinin Konstitusiya qanunu layihələrinə isə üç oxunuşda baxılır.

Qanunvericilik təşəbbüsü hüququnun subyekti Milli Məclisin müzakirəsinə təqdim etdiyi qanun layihəsini onun yekun oxunuşda baxılmasına qədər geri çağırmaq hüququna malikdir.

Milli Məclisdə birinci, ikinci və üçüncü oxunuşlarda baxılması üçün tam hazırlanmış qanun layihəsi müvafiq oxunuşda baxılmasına azı 5 gün qalmış qanunvericilik təşəbbüsü hüququnun subyektinə təqdim edilir.

**M a d d ə 1 7 . Qanun layihəsinin birinci oxunuşu**

Qanun layihəsinin birinci oxunuşu zamanı onun qəbul edilməsinin zəruriliyi, əsas müddəaları müzakirə edilir, qanun layihəsinin ümumi konsepsiyasına qiymət verilir.

Müzakirə layihənin təşəbbüsçüsünün və aparıcı komitəsinin nümayəndəsinin məruzələri ilə başlanır.

Bundan sonra komitələrdə layihəyə baxılarkən onların arasında fikir ayrılığı əmələ gəlmişsə, layihə ilə razı olmayan daimi komitənin rəyini həmin komitənin nümayəndəsi oxuyur.

Qanun layihəsinə birinci oxunuşda baxılması nəticəsində Milli Məclisin aşağıdakı qərarlarından birini qəbul edir:

1) layihə birinci oxunuşda qəbul edilsin və söylənilmiş təkliflər və iradlar nəzərə alınmaqla onun üzərində iş davam etdirilsin (bu qərar protokol qaydasında qəbul edilir);

2) əsaslar və səbəblər göstərilməklə layihə rədd edilsin;

2-1) layihənin qəbul edilməsi müəyyən müddətə təxirə salınsın;

2-2) irad və təkliflər göstərilməklə, layihə yenidən işlənilməsi üçün geri qaytarılsın;

3) qanun qəbul edilsin.

Milli Məclis birinci oxunuşda qəbul edilmiş qanun layihəsinin ictimai dinləməsinin və ya ictimai müzakirəsinin keçirilməsi haqqında qərar qəbul edə bilər.

Birinci oxunuşda qəbul edilmiş qanun layihəsinə dair təklifləri və iradları aparıcı komitə öyrənir və ümumiləşdirir. Aparıcı komitə layihəyə təklif olunan dəyişikliklərin Azərbaycan Respublikası Konstitusiyasına və “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun olub-olmamasını müəyyənləşdirmək üçün müstəqil ekspertiza təyin edə bilər. Layihəyə təklif edilən dəyişikliklərin Azərbaycan Respublikası Konstitusiyasına və “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa zidd olması müəyyənləşdirildikdə aparıcı komitə bu barədə dəyişikliyin müəllifinə xəbər verir. Dəyişiklik vermiş şəxslər müzakirə zamanı dəyişiklikləri dəqiqləşdirə və ya geri götürə bilərlər.

Layihənin ayrı-ayrı maddələri üzrə qruplaşdırılmış dəyişikliklərə aparıcı komitənin iclasında baxılır və komitə bu dəyişikliklərlə razı olduqda onları layihənin mətninə daxil edir. Yenidən işlənilmiş qanun layihəsi ikinci oxunuşda baxılmaq məqsədilə Milli Məclisin iclasının gündəliyinə salınmaq üçün Milli Məclisin Sədrinə göndərilir.

Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinin II hissəsində nəzərdə tutulan qanunvericilik təşəbbüsü hüququnun subyektlərinin qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisin müzakirəsinə verdikləri qanun və ya qərar layihələri müzakirəyə təqdim olunmuş şəkildə çıxarılır və səsə qoyulur. Bu qanun və ya qərar layihələrində dəyişikliklər həmin subyektlərin razılığı ilə edilə bilər.

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 1.8-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Milli Məclisə insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədi ilə qanunların qəbul edilməsinə, ləğv edilməsinə və ya qanunlarda dəyişikliklər edilməsinə dair təkliflər verə bilər. Müvəkkil Milli Məclisə amnistiya elan edilməsi barədə təklif verə bilər. Həmin təklifləri Milli Məclisin sədri müvafiq komitəyə və ya komitələrə göndərir. Müvafiq komitə göstərilən təkliflərə dair müsbət münasibət bildirdikdə onlar Milli Məclisin müzakirəsinə çıxarılır.

### **M a d d ə 1 8 . Qanun layihəsinin ikinci oxunuşu**

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi aparıcı komitənin nümayəndəsinin məruzəsi ilə başlanır. Məruzəçi komitədə layihəyə baxılmasının nəticələri haqqında məlumat verir.

Layihənin ikinci oxunuşda müzakirəsi qanun layihəsi təşəbbüsçüsünün və ya onun nümayəndəsinin çıxışı ilə davam edir.

Daha sonra ikinci oxunuşda müzakirə edilən qanun layihəsinin əsas kimi qəbul edilməsi barədə protokol qaydasında qərar qəbul edilir. Bu cür qərar qəbul edilməzsə, qanun layihəsi qəbul edilməmiş sayılır.

Qanun layihəsi əsas kimi qəbul olunduqdan sonra Milli Məclisin iclasına sədrlik edən deputatlardan qanun layihəsində edilmiş dəyişikliklərə etirazların olub-olmamasını öyrənir. Bu cür etirazlar olduqda onları qısaca əsaslandırmaq üçün hər deputata 3 dəqiqəyədək vaxt verilir. Məruzəçi həmin etirazlara cavab verir və qanun layihəsi maddə-maddə müzakirə edilir. Qanun və ya qərar layihəsi Milli Məclisin müzakirəsinə məcburi hüquqi ekspertizanın rəyi ilə, layihəyə dair verilmiş təklif dövlət vəsaitlərinin ixtisar edilməsinə, xərclərin yaranmasına və ya artırılmasına səbəb ola bildikdə isə, həmçinin bu Daxili Nizamnamənin 15-ci maddəsinin onuncu hissəsinin 2-ci bəndinə uyğun olaraq, müvafiq rəylə birlikdə çıxarılır.

Bundan sonra qanun layihəsi ikinci oxunuşdan qəbul edilir. İkinci oxunuşda qəbul edilmiş qanun layihəsi müzakirə zamanı müəyyənləşdirilmiş daxili ziddiyyətlərin aradan qaldırılması və redaktə edilmək üçün aparıcı komitəyə qaytarılır.

Bu iş başa çatdıqdan sonra aparıcı komitə üçüncü oxunuş üçün hazırlanmış qanun layihəsini Milli Məclisin sədrinə göndərir. Milli Məclisin Sədri qanun layihəsinə üçüncü oxunuşda baxılmasını Milli Məclisin iclasının gündəliyinə salır.

**M a d d ə 1 9 . Qanun layihəsinin üçüncü oxunuşu**

Qanun layihəsinin üçüncü oxunuşu zamanı qanun layihəsi bütövlükdə səsə qoyulur. Qanun layihəsinin üçüncü oxunuşu zamanı onun mətnində dəyişikliklər edilə bilməz.

Milli Məclisin müzakirəsində üçüncü oxunuşda olan qanun layihəsi 63 səs çoxluğu ilə ikinci oxunuşa qaytarıla bilər.

**M a d d ə 2 0 . Milli Məclisdə qanun və qərar layihələrinə baxılması müddəti**

Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinin IV və V hissələrində nəzərdə tutulmuş hallar istisna olmaqla, bütün başqa hallarda Milli Məclisə təqdim edilmiş layihələr 6 ay müddətində baxılır, müzakirə edilir və onlar barəsində qərar qəbul edilir.

Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinin V hissəsində sadalanan subyektlər qanun və qərar layihələrini Milli Məclisin sessiyasının işinin bitməsinə 20 gündən az qaldıqda göndərərsə, Milli Məclisin Sədri həmin layihələrə növbəti sessiyada baxılması haqqında vəsatət qaldıra bilər. Qanunvericilik təşəbbüsü hüququ subyektləri vəsatətə rədd cavabı verərsə, Milli Məclisin sessiyasının işi bitənədək həmin layihələr barədə qərar qəbul edilməlidir.

**M a d d ə 21. Azərbaycan Respublikası Prezidentinin etirazını doğuran və Milli Məclisə qaytarılan qanunlara təkrar baxılması**

Azərbaycan Respublikası Konstitusiyasının 110-cu maddəsinin I hissəsində göstərilmiş müddət ərzində Azərbaycan Respublikasının Prezidenti Milli Məclisin qəbul etdiyi qanunu öz etirazları ilə qaytararsa, Milli Məclis həmin qanuna təkrar baxır.

Azərbaycan Respublikası Prezidentinin qaytardığı qanunu Milli Məclisin Sədri müvafiq aparıcı komitənin və ya xüsusi yaradılmış komissiyanın rəyinə göndərir. Həmin komitə və ya komissiya məsələyə 10 gün müddətində baxıb Milli Məclisə aşağıdakı qərarlardan birinin qəbul olunmasını təklif edir:

qanun Azərbaycan Respublikası Prezidentinin təklif etdiyi dəyişikliklərlə qəbul edilsin;

Azərbaycan Respublikası Prezidentinin qanunun məqsədəuyğun olmaması barədə təklifi qəbul edilsin;

qanun qəbul edilmiş redaktədə saxlanılsın.

Milli Məclisin Sədri bu rəyi aldıqdan sonra Azərbaycan Respublikası Prezidentinin qaytardığı qanunu təkrar baxılmaq üçün Milli Məclisin növbəti iclasının gündəliyinə salır və dərhal bu barədə Azərbaycan Respublikası Prezidentinə xəbər verir.

Qanuna təkrar baxılmasına Azərbaycan Respublikası Prezidentinin nümayəndəsinin çıxışından başlanılır. Bundan sonra Milli Məclisin komitə və ya komissiyasının bu maddədə nəzərdə tutulmuş rəyi oxunur.

Azərbaycan Respublikasının Prezidenti məsələni qanunun məqsədəuyğun olmaması kimi qoyursa, birinci bu təklif səsə qoyulur və Milli Məclisin deputatlarının azı 63 səs çoxluğu ilə qəbul edildikdə, qanun qəbul edilməmiş sayılır. Həmin təklif qəbul edilməzsə, qanunun təkrarən qəbul edilməsi haqqında təklif səsə qoyulur. Azərbaycan Respublikası Konstitusiyasının 110-cu maddəsinin II hissəsinə uyğun olaraq Milli Məclis 83 səs çoxluğu il qəbul edilən qanunu 95 səs çoxluğu ilə, 63 səs çoxluğu ilə qəbul edilən qanun isə 83 səs çoxluğu ilə yenidən qəbul edərsə, qanun təkrarən qəbul edilmiş sayılır və dərc olunmaq üçün 7 gündən gec olmayaraq Azərbaycan Respublikasının Prezidentinə göndərilir.

Azərbaycan Respublikasının Prezidenti qanunda dəyişikliklər edilməsi təklifi ilə onu Milli Məclisə qaytararsa, bu təklif birinci səsə qoyulur. Təklif zəruri səs çoxluğu yığdıqda qanun Azərbaycan Respublikası Prezidentinin təklif etdiyi dəyişikliklərlə qəbul olunmuş sayılır.

Azərbaycan Respublikası Prezidentinin təklifi tələb olunan səs çoxluğu almazsa, qanunun Milli Məclis tərəfindən qəbul edilmiş redaktədə saxlanılması haqqında məsələ səsə qoyulur. Təkrarən qəbul olunmuş qanun dərc olunmaq üçün 7 gündən gec olmayaraq Azərbaycan Respublikasının Prezidentinə göndərilir.

Bu maddənin beşinci və yeddinci hissələrində nəzərdə tutulmuş qərarlar qəbul edilməzsə, Azərbaycan Respublikası Prezidentinin Milli Məclisə qaytardığı qanunlar qəbul edilməmiş sayılır.

**M a d d ə 21-1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin hesabatı, Azərbaycan Respublikasının Hesablama Palatasının illik hesabatı,**

**Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) illik məruzəsi, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı, gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının illik məlumatı, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi**

"Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 1-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti hər il Milli Məclisin yaz sessiyasının beşinci iclasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin fəaliyyəti haqqında hesabat verir.

“Hesablama Palatası haqqında” Azərbaycan Respublikası Qanununun 7.0.11-ci maddəsinə uyğun olaraq Hesablama Palatası onun fəaliyyəti haqqında illik hesabatı Milli Məclisə təqdim edir.

"Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 14.1-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Milli Məclis qarşısında illik məruzə ilə çıxış edir

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə uyğun olaraq bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan hər ilin yekunu üzrə öz fəaliyyəti haqqında Milli Məclisə illik məruzə təqdim edir. Bu məruzədə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan bələdiyyələrin fəaliyyətini tənzimləyən qanunlarda dəyişikliklərin edilməsi ilə bağlı təkliflər verə bilər.

İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 7.5-ci maddəsinə uyğun olaraq, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair illik məlumatı Milli Məclisə təqdim edir.

Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə uyğun olaraq, gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanı öz fəaliyyəti haqqında Milli Məclisə illik məlumat təqdim edir.

**M a d d ə 2 2. Milli Məclisin deputatının toxunulmazlığına xitam verilməsi qaydası**

Azərbaycan Respublikası Konstitusiyasının 90-cı maddəsinin II hissəsinə görə, Milli Məclisin deputatının toxunulmazlığına yalnız Azərbaycan Respublikası Baş prokurorunun təqdimatına əsasən Milli Məclisin qərarı ilə xitam verilə bilər. Bu barədə təqdimata Milli Məclis onun daxil olduğu vaxtdan 7 gün müddətində baxır.

Milli Məclisin Sədri Milli Məclisin deputatı haqqında təqdimatı əvvəlcə Milli Məclisin İntizam komissiyasına (bundan sonra – İntizam komissiyası) göndərir. İntizam komissiyası təqdimata baxaraq Milli Məclisin deputatının toxunulmazlığına xitam verilib-verilməməsi barədə rəy qəbul edir.

Milli Məclis bu barədə məsələlərə deputat toxunulmazlığına xitam verilməsi barədə təqdimat olan deputatın iştirakı ilə baxır. Həmin deputatın iclasda iştirakı mümkün olmadıqda bu məsələyə onun iştirakı olmadan baxılır. Bu məsələ Milli Məclisin iclasında müzakirə edilərkən deputatın ittiham edildiyi cinayətdə təqsirli olub-olmaması məsələsi müzakirə edilə bilməz. İclasda iştirak edən deputatlar yalnız deputat toxunulmazlığına xitam verilməsi barədə Azərbaycan Respublikası Baş prokurorunun təqdimatında kifayət qədər əsasların olub-olmamasını aydınlaşdıra bilərlər və bu məqsədlə Azərbaycan Respublikasının Baş prokuroruna suallar verə bilər, deputat toxunulmazlığına xitam verilməsinin lehinə və ya əleyhinə çıxış edə bilərlər. Milli Məclisin deputatının toxunulmazlığına xitam verilməsi barədə Milli Məclisin qərarı azı 63 səs çoxluğu ilə qəbul edilir.

**M a d d ə  2 3 .  Milli Məclisin deputatlığından məhrumetmə ilə əlaqədar məsələyə Milli Məclisdə baxılması qaydası**

Azərbaycan Respublikası Konstitusiyasının 89-cu maddəsinin I hissəsinin birinci bəndinin 4-cü, 6-cı və 7-ci yarımbəndlərində göstərilən əsaslar olduqda, Milli Məclisin Sədri Milli Məclisin deputatı haqqında məsələni İntizam komissiyasına göndərir. İntizam komissiyası bu məsələyə mandatından məhrum edilməsi nəzərdə tutulan deputatın iştirakı ilə 2 həftə müddətində baxıb müvafiq rəy qəbul edərək Milli Məclisin Sədrinə təqdim edir. Pozuntu halları rəydə öz təsdiqini tapdıqda, Milli Məclisin Sədri İntizam komissiyasının Milli Məclisin deputatının mandatından məhrum edilməsi barədə rəyini Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına göndərir.

Milli Məclisin deputatı Milli Məclisin iclasında mandatından imtina etdikdə və həmin imtina Milli Məclisin iclasının stenoqramına daxil edildikdə, Milli Məclisin deputatı bu imtinasını geri götürə bilməz. Bu halda Milli Məclisin Sədri iclasın stenoqramını və ya stenoqramdan çıxarışı Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına göndərir.

**Maddə 23-1. Milli Məclisin deputatının səlahiyyətlərinin itirilməsinin əsasları və bu məsələyə baxılması qaydası**

Azərbaycan Respublikası Konstitusiyasının 89-cu maddəsinin II hissəsinə əsasən, Milli Məclisin deputatı öz səlahiyyətlərini daimi icra edə bilmədikdə və bu Daxili Nizamnamənin 47-ci maddəsinin beşinci hissəsində göstərilən halda onun səlahiyyətləri itirilir.

Milli Məclisin Sədri əmək qabiliyyətini fasiləsiz olaraq 6 aydan çox müddətə tam itirən Milli Məclisin deputatı barəsində olan tibbi-sosial ekspert komissiyasının rəyini və ya fəaliyyət qabiliyyətsizliyi səbəbindən öz səlahiyyətlərini daimi icra edə bilməyən Milli Məclisin deputatı barəsində olan məhkəmənin qanuni qüvvəyə minmiş qərarını Milli Məclisin növbəti iclasında müzakirəyə təqdim edir. Müzakirə səlahiyyətlərinin itirilməsi nəzərdə tutulan deputatın iştirakı ilə keçirilir. Həmin deputatın iclasda iştirakı mümkün olmadıqda bu məsələyə onun iştirakı olmadan baxılır. İclasda iştirak edən Milli Məclisin deputatları yalnız deputatın səlahiyyətlərinin itirilməsi üçün yetərli əsasların olub-olmamasını aydınlaşdıra bilər, lehinə və ya əleyhinə çıxış edə bilərlər. Öz

səlahiyyətlərini daimi icra edə bilməyən Milli Məclisin deputatının səlahiyyətlərinin itirilməsi barədə Milli Məclisin qərarı azı 63 səs çoxluğu ilə qəbul edilir.

Parlamentdaxili məsuliyyətə cəlb olunması ilə əlaqədar Milli Məclisin deputatının səlahiyyətlərinin itirilməsinin əsasları və müvafiq qərarın qəbul edilməsi qaydası bu Daxili Nizamnamənin 47-ci maddəsinin beşinci hissəsi ilə müəyyən edilir.

**Maddə 23-2. Milli Məclisin buraxılması**

Azərbaycan Respublikası Konstitusiyasının $98^1$-ci maddəsinin I hissəsinə əsasən, Milli Məclisin eyni çağırışı 1 il ərzində iki dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimadsızlıq göstərdikdə və ya Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda üzvlüyə namizədləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən iki dəfə təqdim edildikdən sonra, bu Daxili Nizamnamənin 20-ci maddəsinin birinci hissəsində müəyyən edilmiş müddətdə təyin etmədikdə, habelə Azərbaycan Respublikası Konstitusiyasının 94-cü və 95-ci maddələrində, 96-cı maddəsinin II, III, IV və V hissələrində, 97-ci maddəsində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə, Azərbaycan Respublikasının Prezidenti Milli Məclisi buraxır.

**Maddə 24. Milli Məclisin iclaslarında səsvermənin növləri və qaydası**

Milli Məclisin iclaslarında məsələlər Milli Məclisin iclasına sədrlik edənin müəyyən etdiyi qaydada açıq və ya gizli səsvermə yolu ilə həll edilir.

Milli Məclisin iclaslarında elektron sistemindən istifadə etməklə açıq səsvermə keçirilir. Başqa səsvermə növlərinin keçirilməsi üçün protokol qaydasında qərar qəbul edilir. Milli Məclisin azı 25 deputatı tələb etdikdə elektron sistemindən istifadə etməklə adbaad rejimdə açıq səsvermə keçirilir.

Hər məsələ üzrə səsvermə keçirilərkən Milli Məclisin deputatının bir səsi vardır. Səsvermə keçirilərkən deputat məsələnin qəbul olunmasının lehinə, əleyhinə və ya bitərəf qalmasına səs verə bilər. İclasda iştirak edən deputatın səsvermədə iştirak etməməsi yetərsaya təsir etmir.

Səsvermədə iştirak edən deputat şəxsən səs verməlidir.

Səsvermə zamanı salonda olmayan deputat səsverməyə ayrılan vaxt qurtardıqdan sonra səs verə bilməz.

Milli Məclisin iclasına sədrlik edən səsvermənin başlandığını elan etdikdən sonra heç kəs səsvermənin gedişini (iclasın aparılması barədə etirazların bildirilməsindən başqa) dayandıra bilməz.

Milli Məclisin iclasına sədrlik edən səsvermənin nəticələri müəyyənləşdirildikdən sonra onu elan edir.

Məsələnin həlli üçün tələb edilən yetərsay olmadıqda Milli Məclisin iclasına sədrlik edən səs verməni Milli Məclisin növbəti iclasına keçirir.

**Maddə 25. Açıq səsvermə**

Açıq səsvermə elektron sistemindən istifadə etməklə, elektron sistemindən istifadə etmədən və adbaad sorğu vasitəsilə keçirilə bilər.

Elektron sistemindən istifadə etməklə açıq səsvermə sadə və adbaad rejimdə keçirilə bilər. Elektron sistemindən istifadə etməklə sadə rejimdə açıq səsvermə deputatların önündəki düymələri basması yolu ilə həyata keçirilir və Milli Məclisin iclasının protokolunda deputatların necə səs verdiyi göstərilmədən yalnız səsvermənin nəticələrini göstərməklə əks olunur. Elektron sistemindən istifadə etməklə adbaad rejimdə açıq səsvermə, sadə rejimdə keçirilən səsvermə formasında həyata keçirilir, yalnız Milli Məclisin iclasının protokolunda hər deputatın, necə səs verildiyi göstərilir. Elektron sistemindən istifadə etməklə açıq səsvermə keçirildikdən sonra deputatın, habelə Milli Məclisdə qeydə alınmış media nümayəndəsinin həm sadə, həm də adbaad səsvermənin nəticələri haqqında siyahını almaq hüququ vardır.

Elektron sistemindən istifadə etmədən açıq səsvermə keçirilərkən səsləri Hesablayıcı komissiya hesablayır. Elektron sistemindən istifadə etmədən açıq səsvermə zamanı Milli Məclisin iclasına sədrlik edən deputatlara sual verir: "lehinə", "əleyhinə", "bitərəf". Hər sualdan sonra deputatlar mövqeyindən asılı olaraq əl qaldırırlar, ya da əl qaldırmırlar. Hesablayıcı komissiya səsləri sayır və səsvermə qurtardıqdan sonra nəticələri elan edir.

Adbaad sorğu vasitəsilə açıq səsvermə sorğu vərəqi ilə keçirilir. Milli Məclisin Hesablayıcı komissiyasının üzvlərindən biri sorğu vərəqəsi ilə iclasda iştirak edən deputatların hər birinə yanaşıb sorğu vərəqini təqdim edir. Deputat sorğu vərəqində mövqeyindən asılı olaraq "lehinə", "əleyhinə" və ya "bitərəf" qrafalarının birində soyadını yazır və imza atır. Hesablayıcı komissiya səsvermə bitəndən sonra səsləri hesablayır və sorğu vərəqini Milli Məclisin iclasına sədrlik edənə verir. Milli Məclisin iclasına sədrlik edən adbaad sorğu vasitəsilə keçirilən açıq səsvermənin nəticələrini elan edir.

Açıq səsverməyə başlamazdan əvvəl Milli Məclisin iclasına sədrlik edən verilmiş təkliflərin sayı, məzmunu və ardıcıllığı haqqında, habelə məsələnin hansı səs çoxluğu ilə qəbul edilməsi haqqında məlumat verir.

### M a d d ə 2 6 . Gizli səsvermə

Gizli səsvermə elektron sistemindən istifadə etməklə və ya bülletenlər vasitəsilə keçirilir.

Elektron sistemindən istifadə etməklə gizli səsvermə keçirilərkən deputatların necə səs verdiyi haqqında məlumatlar elektron sisteminin yaddaşına salınmır.

Bülletenlər vasitəsilə gizli səsvermə Milli Məclisin iclas salonunda keçirilir. Hesablayıcı komissiya səsvermə bülletenlərini hazırlayır, səsvermə qutusunu yoxlayır, möhürləyir və deputatları siyahı ilə səs verməyə dəvət edir.

Hesablayıcı komissiya səsvermənin gizliliyini təmin etmək üçün şərait yaratmalıdır. Deputatlar siyahıya imza atıb səsvermə bülletenlərini alır, iclas salonunun hamı tərəfindən görünən yerində qurulmuş səsvermə kabinəsinə daxil olur və orada bülleteni doldururlar. Bülletendə deputat "lehinə", "əleyhinə", "bitərəf" suallarının ikisini pozub birini saxlamalıdır. Əgər gizli səsvermə namizədlər barəsində keçirilirsə, deputat bülletendə lehinə səs verdiyi namizədin soyadını saxlayıb qalan namizədlərin soyadlarını pozur. Doldurulmuş bülleteni

deputat şəxsən özü səsvermə qutusuna salır və sonra iclas salonunda əyləşir. Bülletenlər vasitəsilə gizli səsvermə başa çatdıqdan sonra Hesablayıcı komissiya iclas salonunda səsvermə qutusunu açır və səsləri hesablayır.

Gizli səsvermənin nəticələri barəsində protokol tərtib olunur. Bu protokolda siyahı üzrə deputatların sayı, səsvermədə iştirak etmiş bülletenlərin sayı, istifadə edilməmiş bülletenlərin sayı, etibarlı bülletenlərin sayı, etibarsız büllitenlərin sayı, səsvermənin nəticələri göstərilir. Hesablayıcı komissiyanın müəyyənləşdirdiyi formada tərtib olunmayan bülletenlər, habelə "lehinə", "əleyhinə", "bitərəf" sözlərinin hamısının və ya birinin pozulduğu və ya heç birinin pozulmadığı, yaxud namizədlərin hamısının soyadlarının pozulduğu və ya birdən çoxunun soyadının saxlanıldığı bülletenlər etibarsız sayılır.

Deputatların siyahısı və səsvermə bülletenləri zərfə qoyulur və möhürlənir. Səsvermənin nəticələri barədə protokolu Hesablayıcı komissiyanın bütün üzvləri imzalayırlar. Hesablayıcı komissiyanın protokolunu imzalamaqdan imtina edən komissiya üzvü protokola xüsusi rəy əlavə edə bilər və bu xüsusi rəyini dərhal elan edə bilər. Hesablayıcı komissiyanın sədri bülletenlər vasitəsilə keçirilən gizli səsvermənin nəticələrini elan edir.

Eyni bir məsələnin həlli ilə əlaqədar Milli Məclis adbaad səsvermə və gizli səsvermə haqqında qərar qəbul edərsə, gizli səsvermə keçirilir.

**M a d d ə 2 7 . Səsvermənin ikinci dövrəsi**

İkidən çox namizəd barəsində səsvermə keçirildikdən sonra namizədlərin heç biri Azərbaycan Respublikasının Konstitusiyası ilə nəzərdə tutulmuş səs çoxluğu yığa bilməzsə, daha çox səs yığmış iki namizəd səsvermənin ikinci dövrəsinə keçir. İkinci dövrədə o namizəd seçilmiş sayılır ki, Azərbaycan Respublikasının Konstitusiyası ilə Milli Məclisin qərarlarının qəbul edilməsi üçün nəzərdə tutulmuş səs çoxluğu qazanmış olsun. İkinci dövrədə namizədlərin heç biri lazımi səs çoxluğu qazana bilmədikdə başqa namizədlər göstərilməklə yeni səsvermə keçirilir.

**M a d d ə 2 8 . Təkrar səsvermə**

Səsvermənin nəticələri müəyyən edilərkən texniki (elektron sisteminin nasazlığı ilə əlaqədar) və ya prosedur səhvləri aşkar edilərsə, Milli Məclisin protokol qaydasında qəbul edilmiş qərarı ilə təkrar səsvermə keçirilir.

**M a d d ə 2 9 . Milli Məclisin iclaslarında elektron sistemindən istifadə**

Milli Məclisin iclaslarında elektron sistemindən deputatların qeydiyyatı, onların çıxışlara yazılması, səsvermənin keçirilməsi üçün istifadə edilə bilər.

Elektron sistemindən istifadəyə Milli Məclisin Sədri nəzarət edir.

Elektron sistemi ilə deputatların qeydiyyatdan keçməsinin, çıxışlara yazılmasının nəticələri və səsvermənin yekunları iclas salonunda qurulmuş elektron tablosu vasitəsi ilə göstərilir.

Bütün məlumatlar elektron sisteminin yaddaşında və Milli Məclisin arxivində maqnit daşıyıcılarında saxlanılır. Elektron sistemində saxlanılan məlumatlar Milli

Məclisin Sədrinin icazəsi ilə deputatlara və başqa müraciət edənlərə verilir. Milli Məclisin qapalı iclasları haqqında məlumatlar yalnız Milli Məclisin Sədrinə verilir.

Elektron sisteminin işində səhvlər haqqında şikayətlərə Milli Məclisin Sədri baxır.

**M a d d ə 3 0 . Milli Məclisin aktlarının qəbul edilməsi üçün tələb olunan səs çoxluğu**

Azərbaycan Respublikasının Konstitusiyasında və bu Daxili Nizamnamədə başqa qayda nəzərdə tutulmayıbsa, Milli Məclisin aktları 63 deputatın səs çoxluğu ilə qəbul edilir.

Prosedur məsələləri ilə əlaqədar protokol qaydasında qərarlar, bu Daxili Nizamnamədə başqa qayda nəzərdə tutulmayıbsa, Milli Məclisin iclasında iştirak edən deputatların sadə səs çoxluğu ilə qəbul edilir.

## İ k i n c i f ə s i l
## MİLLİ MƏCLİSİN ORQANLARI

**M a d d ə 3 1 . Milli Məclisin Sədrinin səlahiyyətləri**

Milli Məclisin Sədri:

Milli Məclisin iclaslarını aparır;

Azərbaycan Respublikası Prezidentinin və ya Milli Məclisin 42 deputatının tələbi əsasında Milli Məclisin növbədənkənar sessiyasını çağırır;

Milli Məclisin Sədrinin müavinləri arasında iş bölgüsü aparır;

Milli Məclisin Sədrinin müavinləri və Milli Məclisin komitələrinin sədrləri ilə birlikdə qanun layihələrinin hazırlanmasına dair Milli Məclisin illik planını tərtib edir, qarşılıqlı razılaşdırılması üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim edir və həmin illik plan əsasında hər növbəti sessiyanın qanunvericilik işləri planını təsdiq edilməsi üçün Milli Məclisə təqdim edir;

qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə daxil olmuş qanun və qərar layihələrini Milli Məclisin müvafiq komitələrinə göndərir;

qəbul edilmiş qanunların ikinci nüsxəsinin son səhifəsində viza qoyur və imzalanması üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

Milli Məclisin daxili intizamını bu Daxili Nizamnamədə nəzərdə tutulmuş səlahiyyətlər çərçivəsində təmin edir;

Milli Məclisi icra və məhkəmə hakimiyyəti orqanları ilə, siyasi partiyalarla, ictimai birliklərlə, həmkarlar ittifaqları, xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla, media subyektləri ilə, habelə başqa fiziki və hüquqi şəxslərlə münasibətlərdə təmsil edir;

Milli Məclisin aparatının rəhbər işçilərini vəzifəyə təyin və vəzifədən azad edir;

mühüm qanun layihələrinin hazırlanması üçün işçi qrupları yaradır;

Azərbaycan Respublikasının Konstitusiyası və bu Daxili Nizamnamə ilə nəzərdə tutulmuş başqa səlahiyyətləri həyata keçirir.

Milli Məclisin Sədri öz səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar sərəncamlar qəbul edir.

Milli Məclisin Sədri öz mülahizəsinə görə Milli Məclisin iclasının gündəliyinə birinci növbəli məsələlər kimi təcili həll edilməsi tələb olunan məsələləri və başqa məsələləri daxil edə bilər.

**M a d d ə 3 2 . Milli Məclis sədrinin müavinlərinin səlahiyyətləri**

Milli Məclisin Sədrinin müavinləri onların arasında aparılmış iş bölgüsünə uyğun olaraq fəaliyyət göstərir. Milli Məclisin Sədrinin ayrı-ayrı tapşırıqlarını yerinə yetirir, Milli Məclisin Sədrinin göstərişi ilə Milli Məclisin iclaslarına sədrlik edirlər.

Milli Məclisin Sədri vəzifəsi müvəqqəti boşaldıqda Milli Məclisin Sədrinin birinci müavini, o olmadıqda Milli Məclisin Sədrinin daha yaşlı müavini, o olmadıqda isə Milli Məclisin sədrinin müavini Milli Məclisin Sədri seçilənədək onun səlahiyyətlərini həyata keçirirlər.

**M a d d ə 3 3 . Milli Məclisin Sədrinin seçilməsi qaydası**

Milli Məclisin sədri Milli Məclisin deputatları sırasından gizli (elektron sistemindən istifadə etməklə) səsvermə yolu ilə seçilir. Elektron sistemindən istifadə zamanı nasazlıq yarandıqda gizli səsvermə bülletenlər vasitəsilə keçirilir.

Milli Məclisin Sədri vəzifəsinə namizədliyi Milli Məclisin deputatları irəli sürə bilərlər. Hər deputat yalnız bir namizəd göstərə bilər.

Öz namizədliyinə etiraz müzakirəsiz və səsvermə keçirilmədən qəbul edilir.

Səsverməyə azı 10 deputatın tərəfdar çıxdığı namizədlər buraxılır. Namizədlər çıxış edə və deputatların suallarına cavab verə bilərlər. Namizədlər üzrə müzakirələr keçirilir. Milli Məclisin Sədrliyinə hər namizəd Hesablayıcı komissiyanın tərkibinə əlavə bir deputat daxil edə bilər.

Gizli səsvermə nəticəsində azı 63 deputatın səsini almış namizəd Milli Məclisin sədri seçilir.

Namizədlərin heç biri azı 63 səs almadıqda, bu Daxili Nizamnamənin 27-ci maddəsində nəzərdə tutulmuş qaydada səsvermənin ikinci dövrəsi keçirilir. İkinci dövrədə heç bir namizəd 63 səs ala bilməzsə, Milli Məclisin Sədrinin birinci müavinin seçkiləri keçirilir.

Milli Məclisin Sədrinin seçilməsi Milli Məclisin qərarı ilə rəsmiləşdirilir. Bu qərarı Milli Məclisin iclasına sədrlik edən imzalayır.

**M a d d ə 3 4 . Milli Məclis Sədrinin müavinlərinin seçilməsi qaydası**

Milli Məclisin Sədrinin müavinləri Milli Məclisin deputatları sırasından açıq səsvermə yolu ilə seçilir.

Milli Məclisin Sədrinin müavini vəzifəsinə namizədliyi ilk növbədə Milli Məclisin Sədri, sonra isə Milli Məclisin deputatları irəli sürə bilərlər. Milli Məclisin Sədri və hər deputat Milli Məclisin Sədrinin birinci müavini və müavinləri vəzifələrinin hər birinə yalnız bir namizəd göstərə bilərlər.

Öz namizədliyinə etiraz müzakirəsiz və səsvermə keçirilmədən qəbul edilir.

Səsverməyə azı 7 deputatın tərəfdar çıxdığı namizədlər buraxılır. Namizədlər çıxış edə və deputatların suallarına cavab verə bilərlər. Namizədlər üzrə müzakirələr keçirilir.

Açıq səsvermə nəticəsində azı 63 deputatın səsini almış namizəd Milli Məclisin Sədrinin müavini seçilir.

Namizədlərin heç biri azı 63 səs almadıqda, bu Daxili Nizamnamənin 27-ci maddəsində nəzərdə tutulmuş qaydada səsvermənin ikinci dövrəsi keçirilir. İkinci dövrədə heç bir namizəd 63 səs ala bilməzsə, başqa namizədlər göstərilməklə yeni seçkilər keçirilir.

Milli Məclisin Sədrinin müavinlərinin seçilməsi Milli Məclisin qərarı ilə rəsmiləşdirilir.

**M a d d ə 3 5 . Milli Məclisin komitələri**

Milli Məclisin növbəti çağırışının birinci sessiyasının əvvəlində "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq Milli Məclisin komitələri yaradılır.

Milli Məclisin komitələri Milli Məclisin çağırışının səlahiyyət müddəti ərzində səlahiyyətlidir.

Milli Məclisin komitələri Milli Məclisin azı 63 deputatının səs çoxluğu ilə təsdiq olunan "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında Azərbaycan Respublikasının Qanunu" əsasında fəaliyyət göstərirlər.

Milli Məclisin komitələrinin fəaliyyəti fikir müxtəlifliyi, siyasi plüralizm, aşkarlıq, məsələlərin sərbəst müzakirəsi prinsipləri əsasında qurulur.

**M a d d ə 3 6 . Milli Məclisin komitəsinin tərkibi**

Milli Məclisin komitəsinin say tərkibi Milli Məclis tərəfindən müəyyən edilir, lakin azı 5, çoxu 20 deputatdan ibarət olmalıdır.

15 deputatdan çox üzvü olan komitə köməkçi komitə yarada bilər.

Milli Məclisin rəhbərliyi Milli Məclisin komitəsinin üzvü ola bilər. Milli Məclisin başqa hər bir deputatı komitələrdən birinin üzvü olmalıdır. Bir deputat ən çoxu iki komitənin üzvü ola bilər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olan Milli Məclisin deputatı Milli Məclisin komitəsinin üzvü olmaya bilər.

Milli Məclisin komitəsinin sədri, onun müavini və üzvləri Milli Məclisin iclasında azı 63 deputatın səs çoxluğu ilə seçilirlər. Komitənin tərkibinin seçilməsi Milli Məclisin qərarı ilə rəsmiləşdirilir.

Milli Məclisin deputatı heç bir komitənin üzvlüyünə daxil olmursa, Milli Məclisin Sədri sərəncamla həmin deputatı komitələrin birinə daxil edir.

**M a d d ə 3 7 . Milli Məclisin komitələrinin iclasları**

Milli Məclisin komitəsinin iclası onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir.

Milli Məclisin Sədrinin tələbi ilə Milli Məclisin komitəsinin növbədənkənar iclası çağırılır.

Milli Məclisin komitəsinin iclası haqqında komitə üzvü iclas gününə azı 2 gün qalmış xəbərdar edilməlidir.

Komitənin üzvü olan Milli Məclisin deputatının komitəsinin iclasında iştirakı məcburidir.

Komitənin iclasında üzürsüz səbəbdən iştirak edə bilməyən deputat komitənin sədrindən icazə almalıdır.

Komitənin iclaslarında həmin komitənin üzvü olmayan deputatlar da məşvərətçi səslə iştirak edə bilərlər. Komitələrin sədrləri onların iclaslarına həmçinin başqa şəxsləri dəvət edə bilərlər.

Milli Məclisin iki və ya daha çox komitəsi birgə iclas keçirə bilər.

**M a d d ə 3 8 . Komitənin sədri və onun müavini**

Komitənin iclasını onun sədri, o olmadıqda və ya onun tapşırığı ilə komitə sədrinin müavini aparır.

komitənin sədri komitənin işinə rəhbərlik edir, onun iclasının gününü və saatını təyin edir, komitənin ayrı-ayrı üzvlərinə tapşırıqlar verir, komitənin işini Milli Məclisin digər komitələrinin və komissiyalarının işi ilə əlaqələndirir, komitənin iclasının protokolunu imzalayır.

Komitə sədrinin müavini sədr olmadıqda onu əvəz edir, sədrin tapşırığı ilə komitənin müəyyən işlərinə rəhbərlik edir.

**M a d d ə 3 9 . Komitənin hüquqları**

Komitənin qanun və qərar layihələrinin hazırlanması üçün zəruri olan sənədləri və materialları mərkəzi və yerli icra və məhkəmə hakimiyyəti orqanlarından, yerli özünüidarə orqanlarından, dövlət və qeyri-dövlət müəssisələri, idarələri və təşkilatlarından tələb etmək, onların nümayəndələrini (ekspertlərini) komitənin iclaslarına dəvət etmək hüququ vardır.

Komitənin qanun və qərar layihələrinin hazırlanması üçün tələb etdiyi sənədləri və materialları mərkəzi və yerli icra və məhkəmə hakimiyyəti orqanları, yerli özünüidarə orqanları, dövlət və qeyri-dövlət müəssisələri, idarələri və təşkilatları 10 gün müddətində komitəyə göndərməlidirlər. Əgər həmin sənədlərdə və materiallarda dövlət, kommersiya sirri, yaxud qanunla qorunan başqa məxfi məlumatlar varsa, onlar göndərilmir və bu barədə Milli Məclisin Sədrinə əsaslandırılmış yazılı cavab verilir.

Milli Məclisin Sədri bu cavabla razı olmayaraq həmin sənədləri və materialları tələb edərsə, onların Milli Məclisin Sədrinə təqdim edilməsi məcburidir.

**M a d d ə 4 0 . Milli Məclisin Hesablayıcı komissiyası**

Növbəti çağırış Milli Məclisin birinci iclasında və bundan sonra hər il Milli Məclisin yaz sessiyasının birinci iclasında Hesablayıcı komissiya yaradılır. Hesablayıcı komissiya açıq və gizli səsvermələri keçirmək və onların nəticələrini müəyyən etmək məqsədi ilə yalnız Milli Məclisin iclaslarında fəaliyyət göstərir.

Milli Məclisin Hesablayıcı komissiyası Milli Məclisin deputatları sırasından 1 il müddətinə 7 üzvdən ibarət tərkibdə seçilir. Seçildikdən sonra Milli Məclisin Hesablayıcı komissiyası öz üzvləri sırasından komissiyanın sədrini və katibini seçir.

Hesablayıcı komissiyanın iclası onun azı 4 üzvü iştirak etdikdə səlahiyyətlidir. Hesablayıcı komissiyanın bütün qərarları onun iclaslarında iştirak

edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. İntizam komissiyasının qərarı ilə razı olmayan onun üzvü komissiyanın yekun protokolunda xüsusi rəyini əks etdirə bilər və Milli Məclisin iclasında xüsusi rəylə çıxış edə bilər.

Milli Məclisin Sədrinin seçkiləri keçirilərkən Milli Məclisin sədrliyinə göstərilmiş hər namizəd Hesablayıcı komissiyanın tərkibinə əlavə bir üzv daxil edə bilər. Hesablayıcı komissiyanın bu üzvləri yalnız Milli Məclisin Sədrinin seçkiləri zamanı komissiyanın üzvü olurlar.

**Maddə 41. İntizam komissiyası**

Növbəti çağırış Milli Məclisin birinci iclasında və bundan sonra hər il Milli Məclisin yaz sessiyasının birinci iclasında İntizam komissiyası yaradılır. İntizam komissiyası Milli Məclisin deputatları sırasından 1 il müddətinə 11 üzvdən ibarət tərkibdə seçilir. Seçildikdən sonra İntizam komissiyası öz üzvləri sırasından komissiyanın sədrini, sədr müavinini və katibini seçir.

İntizam komissiyasının səlahiyyətlərinə aşağıdakılar aiddir:

1) "Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş etik davranış qaydalarına riayət edilməsinə nəzarət etmək və bu məsələlərlə bağlı müraciətlərə baxmaq;

2) etik davranış qaydaları barədə Milli Məclisin deputatlarını məlumatlandırmaq, bu qaydalarla bağlı rəy və tövsiyələr vermək, həmin qaydaların pozulmasının qarşısının alınması üçün tədbirlər görmək və görülən tədbirlərə dair mütəmadi ümumiləşdirmələr aparıb Milli Məclisin Sədrinə məlumat vermək;

3) bu Daxili Nizamnamənin 45-ci maddəsinin birinci hissəsinin 1-ci bəndində göstərilən əsasa görə, Milli Məclisin, yaxud onun komitə və ya komissiyasının iclasına sədrlik edənin təqdimatı əsasında araşdırma aparmaq və müvafiq əsaslar aşkar etdikdə Milli Məclisin deputatı barəsində töhmət intizam tədbirinin tətbiq edilməsi haqqında qərar qəbul etmək;

4) bu Daxili Nizamnamənin 45-ci maddəsinin birinci hissəsinin 2-ci bəndində göstərilən əsasa görə, Milli Məclisin Sədrinin təqdimatı əsasında araşdırma aparmaq və müvafiq əsaslar aşkar etdikdə Milli Məclisin deputatı barəsində töhmət intizam tədbirinin tətbiq edilməsi haqqında qərar qəbul etmək;

5) bu Daxili Nizamnamənin 45-ci maddəsinin birinci hissəsinin 3-cü bəndində göstərilən əsaslara görə, Milli Məclisin Sədrinin təqdimatı əsasında araşdırma aparmaq və müvafiq əsaslar aşkar etdikdə Milli Məclisin deputatı barəsində töhmət intizam tədbirinin tətbiq edilməsi haqqında qərar qəbul etmək, yaxud Milli Məclisin deputatının səlahiyyətlərinin itirilməsi intizam tədbirinin tətbiq edilməsi barədə rəy qəbul edib Milli Məclisin müzakirəsinə təqdim etmək;

6) Milli Məclisin deputatının toxunulmazlığına xitam verilməsi haqqında Azərbaycan Respublikası Baş prokurorunun təqdimatına Milli Məclisin Sədrinin göndərişi əsasında baxıb müvafiq rəy qəbul etmək və Milli Məclisin müzakirəsinə təqdim etmək;

7) Azərbaycan Respublikası Konstitusiyasının 89-cu maddəsinin I hissəsinin birinci bəndinin 4-cü, 6-cı və 7-ci yarımbəndlərində göstərilən hallar olduqda, Milli Məclisin Sədrinin təqdimatı əsasında araşdırma aparmaq və müvafiq əsaslar

aşkar etdikdə Milli Məclisin deputatının mandatından məhrum edilməsi haqqında qəbul etdiyi rəyi Milli Məclisin Sədrinə təqdim etmək;

8) bu Daxili Nizamnamədə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək.

İntizam komissiyasının iclası onun azı 6 üzvü iştirak etdikdə səlahiyyətlidir. İntizam komissiyasının bütün qərarları (rəyləri) onun iclaslarında iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Bu maddənin ikinci hissəsində göstərilən məsələlərə dair keçirilən iclaslarda İntizam komissiyasının rəyi ilə razı olmayan komissiya üzvü xüsusi rəyini protokola əlavə edə bilər və həmin xüsusi rəylə (7-ci bəndində göstərilən məsələyə dair xüsusi rəy istisna olmaqla) Milli Məclisin iclasında çıxış edə bilər.

İntizam komissiyasının rəy verilməsi məqsədi ilə keçirilən iclaslarında hüquqşünas ekspertlərin köməyindən istifadə edilə bilər. Ekspertlər İntizam komissiyasında əməkhaqqı ödənilməklə və ya ictimai əsaslarla işləyə bilərlər. Əməkhaqqı ödənilməklə işləyən ekspertlərin əmək münasibətləri Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir.

**M a d d ə 4 2 . Milli Məclisin müvəqqəti komissiyaları**

Milli Məclisin deputatlarından Milli Məclisin müvəqqəti komissiyaları yaradıla bilər.

Milli Məclisin müvəqqəti komissiyasının tərkibi, vəzifələri, səlahiyyətləri və fəaliyyət müddəti Milli Məclisin qərarı ilə müəyyən edilir.

**M a d d ə 4 3 . Milli Məclisin deputat fraksiyaları (qrupları)**

Milli Məclisin azı 25 deputatı könüllü birləşərək deputat fraksiyaları (qrupları) yarada bilərlər. Deputat fraksiyasının (qruplarının) yaradılması barədə bəyanat Milli Məclisin iclasında oxunur və deputat fraksiyası (qrupu) Milli Məclisin Aparatında qeydiyyatdan keçirilir.

Deputat fraksiyası (qrupu) Milli Məclisdə müzakirə edilmək üçün təkliflər verə bilər. Milli Məclisin müzakirəsinə çıxarılmış bütün məsələlərə dair münasibətini bildirə bilər.

Deputatın fraksiyadan (qrupdan) çıxması nəticəsində deputat fraksiyasının (qrupunun) tərkibi 25 deputatdan az olarsa, deputat fraksiyası (qrupu) ləğv edilmiş sayılır və bu barədə Milli Məclisin iclasında elan edilir.

**M a d d ə 4 4 . Milli Məclisin Hesablama Palatası**

Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsinə əsasən, Milli Məclis Hesablama Palatası yaradır. Hesablama Palatası Milli Məclisə hesabat verən, daimi fəaliyyət göstərən ali audit orqanıdır.

Hesablama Palatası sədrdən, sədr müavinindən və 5 auditordan ibarətdir.

Hesablama Palatasının sədri, sədr müavini və auditorları dövlət idarəçiliyi, dövlət nəzarəti, hüquq, iqtisadiyyat və ya maliyyə sahələrində 5 ildən az olmayaraq iş təcrübəsinə malik olan ali təhsilli Azərbaycan Respublikasının vətəndaşları ola bilərlər.

Hesablama Palatasının sədri, sədr müavini və auditorları Milli Məclisin Sədrinin təqdimatı əsasında Milli Məclisin azı 63 deputatının səs çoxluğu ilə təyin olunurlar.

Hesablama Palatasının sədrliyinə, sədr müavinliyinə namizədlər Milli Məclis qarşısında çıxış edirlər. Deputatlar onlara suallar verə, təklif olunan namizəd barəsində öz fikirlərini bildirə, namizədin lehinə və ya əleyhinə çıxış edə bilərlər.

Hesablama Palatasının auditorları Milli Məclisə qısa məlumatla təqdim olunurlar.

Hesablama Palatası sədrinin, sədr müavininin və auditorlarının səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi ilə bağlı məsələlər “Hesablama Palatası haqqında” Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə uyğun olaraq tənzimlənir.

## Ü ç ü n c ü f ə s i l
## MİLLİ MƏCLİS DEPUTATLARININ PARLAMENTDAXİLİ MƏSULİYYƏTİ

### M a d d ə 45. Milli Məclis deputatlarının parlamentdaxili məsuliyyətinin əsasları

Milli Məclisin deputatı aşağıdakı hallarda parlamentdaxili məsuliyyətə cəlb olunur:

1) “Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş etik davranış qaydalarını pozduqda (kobud surətdə pozduğu hallar istisna olmaqla);

2) “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda);

3) Milli Məclisin, yaxud onun komitə və komissiyalarının iclaslarında üzrsüz səbəbdən iştirak etmədikdə.

Milli Məclisin deputatı Azərbaycan Respublikası Konstitusiyasının 89-cu maddəsinin I hissəsinin birinci bəndində nəzərdə tutulmuş hallar üzrə parlamentdaxili məsuliyyətə cəlb oluna bilməz.

### M a d d ə 46. Parlamentdaxili məsuliyyətə cəlb olunan Milli Məclisin deputatına tətbiq edilən intizam tədbirləri

Bu Daxili Nizamnamənin 45-ci maddəsinin birinci hissəsində göstərilən əsaslara görə Milli Məclisin deputatı barəsində aşağıdakı intizam tədbirlərindən biri tətbiq edilir:

1) xəbərdarlıq;
2) söz kəsmə;
3) iclas salonundan çıxarma;
4) töhmət;
5) deputat səlahiyyətlərinin itirilməsi;

**M a d d ə 4 7 . Parlamentdaxili məsuliyyətə cəlb olunan Milli Məclisin deputatına intizam tədbirlərinin tətbiqi qaydası**

Bu Daxili Nizamnamənin 45-ci maddəsinin birinci hissəsinin 1-ci bəndində göstərilən əsasa görə, Milli Məclisin, yaxud onun komitə və ya komissiyasının iclasına sədrlik edən tərəfindən Milli Məclisin deputatı barəsində xəbərdarlıq, söz kəsmə və ya iclas salonundan çıxarma intizam tədbiri tətbiq edilir, yaxud töhmət intizam tədbirinin tətbiq edilməsi üçün İntizam komissiyasına təqdimatla müraciət edilir. İntizam komissiyası 2 həftə müddətində apardığı araşdırma nəticəsində müvafiq əsaslar aşkar etdikdə Milli Məclisin deputatı barəsində töhmət intizam tədbirinin tətbiq edilməsi haqqında qərar qəbul edir.

Bu Daxili Nizamnamənin 45-ci maddəsinin birinci hissəsinin 2-ci bəndində göstərilən əsasa görə, Milli Məclisin Sədri Milli Məclisin deputatı barəsində İntizam komissiyasına təqdimatla müraciət edir. İntizam komissiyası 2 həftə müddətində apardığı araşdırma nəticəsində müvafiq əsaslar aşkar etdikdə Milli Məclisin deputatı barəsində töhmət intizam tədbirinin tətbiq edilməsi haqqında qərar qəbul edir.

Bu Daxili Nizamnamənin 45-ci maddəsinin birinci hissəsinin 3-cü bəndində göstərilən əsasa görə, Milli Məclisin və onun komitə və komissiyalarının iclaslarında üzrsüz səbəbdən azı dalbadal 4 və ya bir ayda üst-üstə 6 iclasda iştirak etməyən Milli Məclisin deputatı barəsində Milli Məclisin Sədri İntizam komissiyasına təqdimatla müraciət edir. İntizam komissiyası 1 həftə müddətində apardığı araşdırma nəticəsində müvafiq əsaslar aşkar etdikdə Milli Məclisin deputatı barəsində töhmət intizam tədbirinin tətbiq edilməsi haqqında qərar qəbul edir.

Milli Məclisin deputatı barəsində töhmət intizam tədbirinin tətbiq edilməsi haqqında qərar Milli Məclisin növbəti iclasında elan edilir.

Bu Daxili Nizamnamənin 45-ci maddəsinin birinci hissəsinin 3-cü bəndində göstərilən əsasa görə, Milli Məclisin Sədri Milli Məclisin növbəti sessiyasının bütün iclaslarında və ya il ərzində Milli Məclisin 15 iclasında üzrsüz səbəbdən iştirak etməyən Milli Məclisin deputatı barəsində İntizam komissiyasına təqdimatla müraciət edir. İntizam komissiyası 2 həftə müddətində apardığı araşdırma nəticəsində müvafiq əsaslar aşkar etdikdə Milli Məclisin deputatı barəsində deputat səlahiyyətlərinin itirilməsi intizam tədbirinin tətbiq edilməsi haqqında rəy qəbul edir və Milli Məclisin müzakirəsinə çıxarır. Bu məsələyə Milli Məclisin növbəti iclasında səlahiyyətlərinin itirilməsi nəzərdə tutulan deputatın iştirakı ilə baxılır. Həmin deputatın iclasda iştirakı mümkün olmadıqda bu məsələyə onun iştirakı olmadan baxılır. İclasda iştirak edən Milli Məclisin deputatları yalnız deputat səlahiyyətlərinin itirilməsi üçün yetərli əsasların olub-olmamasını aydınlaşdıra bilər, İntizam komissiyasının üzvlərinə suallar verə bilər və deputatın səlahiyyətlərinin itirilməsinin lehinə və ya əleyhinə çıxış edə bilərlər. Milli Məclisin deputatının səlahiyyətlərinin itirilməsi barədə Milli Məclisin qərarı azı 63 səs çoxluğu ilə qəbul edilir.

**M a d d ə 4 8 . Parlamentdaxili məsuliyyətə cəlb edilmiş Milli Məclisin deputatları haqqında məlumatların media ilə yayılması**

Parlamentdaxili məsuliyyətə cəlb edilmiş Milli Məclisin deputatları haqqında məlumatlar "Azərbaycan" qəzetində dərc olunur və Azərbaycan Respublikası Milli Məclisinin Aparatı tərəfindən başqa medialarına təqdim edilir.

Azərbaycan Respublikası Milli Məclisinin növbəti sessiyaları dövründə hər ay "Azərbaycan" qəzetində Milli Məclisin və onun komitə və komissiyalarının iclaslarını üzürsüz səbəbdən buraxan deputatların adları dərc olunur.

## Dördüncü fəsil
## KEÇİD VƏ YEKUN MÜDDƏALARI

**Maddə 49.** *Ləğv edilmişdir.*

**Maddə 50.** *Ləğv edilmişdir.*

**Maddə 51. Bu Daxili Nizamnamənin icrasına nəzarət**

Bu Daxili Nizamnamənin icrasına nəzarət Milli Məclisin rəhbərliyi tərəfindən həyata keçirilir.

**Maddə 52. Milli Məclisin xərclər smetasının təsdiqi**

Milli Məclisin xərclər smetası Milli Məclisdə növbəti ilin büdcəsinə baxılarkən təsdiq edilir.

**Maddə 53. Milli Məclisin sənədlərinin dərc edilməsi**

Milli Məclisin qərarları "Azərbaycan Respublikası Milli Məclisinin Məlumatı"nda rəsmi dərc edilir.

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 6-20-ci bəndlərində göstərilən məsələlər üzrə Milli Məclisin açıq iclaslarında qəbul etdiyi qərarlar 3 gün müddətində "Azərbaycan" qəzetində dərc edilir.

Milli Məclisin qərarları Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmək məqsədi ilə qəbul edildiyi gündən 3 gün keçənədək müvafiq icra hakimiyyəti orqanına müşayiət məktubu olmadan göndərilir.

Milli Məclisin açıq iclaslarının protokolları və stenoqramları "Azərbaycan Respublikası Milli Məclisi iclaslarının protokollları və stenoqramları"nda rəsmi dərc edilir.